# Azərbaycan sahibkarlığını yeni yüksəliş dövrünə aparan müdrik və qətiyyətli lider



**Bütün həyatını xalqına və vətəninə həsr etmiş dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin adı tariximizə müstəqilliyimizin memarı kimi yazılıb. Zəngin fəaliyyəti, böyük xilaskarlıq missiyası, misilsiz insani keyfiyyətləri sayəsində Ulu Öndər zirvəsinə ucalmış və zəmanəmizin əbədiyaşar dahisinə çevrilmiş Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəni ziddiyyətlər burulğanından xilas etdi və Azərbaycanda yeni iqtisadi strategiyanın əsası qoyuldu.**

Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzində olmuş və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Prezident İlham Əliyevin son 19 ildə Azərbaycana qazandırdığı uğurlardan bəhs edərkən onların zirvəsində dayanan tarixi Zəfərimiz böyük qürurla vurğulanır. Xalqımıza Qarabağ Zəfərini bəxş edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin güclü dövlət konsepsiyasının əsasını üç mühüm amil - iqtisadi, siyasi, hərbi güc təşkil edir ki, onların vəhdəti Vətən müharibəsində Qələbəni təmin etmişdir.

Ümummilli Lider Heydər Əliyevin ölkə iqtisadiyyatının inkişafında neft amilinə xüsusi önəm verməsi bu günümüzə hesablanmış mühüm addımlar sırasındadır. Tarixə "Əsrin müqaviləsi" kimi daxil olan beynəlxalq neft sazişi Azərbaycanın bugünkü reallıqlarının əsasını qoymuşdur. Son 19 ildə çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri reallığa çevrilmişdir. Həmçinin əməkdaşlığın coğrafiyası genişlənmiş və bu istiqamətdə başlanğıc kimi dəyərləndirilən "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuş, Trans-Anadolu və Trans-Adriatik boru kəmərləri istifadəyə verilmişdir. Beləliklə, Azərbaycan Qərbin enerji təhlükəsizliyində söz sahibinə çevrilmiş və iqtisadi inkişafın, dövlət müstəqilliyinin möhkəm təminatının bünövrəsi qoyulmuşdur.

Azərbaycanın bu uğurlarını davam etdirən İlham Əliyev peşəkar siyasətçi və diplomat kimi Qarabağı işğaldan azad etməyi gerçəkləşdirmək üçün böyük daxili islahatlar apardı, ölkəmizin strateji müttəfiqi olan Türkiyə ilə bütün sahələrdə əlaqələri daha yüksəklərə daşıdı. Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasının tərkib hissəsi olaraq Azərbaycanın siyasi mövqeyinin möhkəmlənməsi üçün geniş imkanlar yarandı. Dövlətimizin çoxşaxəli, çevik və açıq xarici siyasət kursu, ən əsası, qarşılıqlı hörmət və maraqlar prinsipinə əsaslanması Azərbaycana yeni dostlar və tərəfdaşlar qazandırır. 30 il dünyadan ədalət gözləyən ölkəmiz üçün həqiqətlərin təbliği, erməni yalanlarının ifşası, bir sözlə, diplomatik mübarizədə qələbə mütləq idi. Prezident İlham Əliyevin hər bir çıxışının mahiyyətində artıq bu gün tarixə qovuşmuş keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqların təbliği dayanır.

Azərbaycan Prezidenti İlham Əliyev mədəniyyət paytaxtımız Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən bir daha Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiqliyini, onun vəsiyyətini yerinə yetirmək üçün səylər göstərdiyini, dövlətini, xalqını güclü, qürurlu görməkdən xoşbəxt olduğunu təsdiqlədi.

Postmüharibə dövrü ölkəmiz üçün əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin mövcudluğu kimi çox nadir imkanlar yaratmışdır. Bu gün işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına inteqrasiyasının uğurla həyata keçirilməsi nəzərdə tutulur. Bununla bağlı Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqlənmişdir ki, həmin sənəddə işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirildiyi bildirilir.

Bölgənin bərpa-quruculuq işlərinə infrastruktur layihələrindən başlanılıb və bu, təsadüfi deyil. Çünki mükəmməl infrastruktur yaratmadan iqtisadiyyatın bərpası və insanların məskunlaşması mümkün deyil. Odur ki, indiyədək yüz kilometrlərlə avtomobil yolunun çəkilməsi istiqamətində xeyli iş görülüb. Tarixi Zəfər yolunun çəkilməsi təkcə infrastruktur layihəsi deyil, şanlı qələbəmizə qoyulan abidədir.

Prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif təyinatlı yeni obyektlərin təməlini qoyur, açılışını edir. Ümumilikdə Prezident ötən il Qarabağa və Şərqi Zəngəzura 32 səfəri çərçivəsində 21 obyektin açılışını etmiş, 37 təməlqoyma mərasiminə qatılmışdır.

Qarabağın işğaldan azad olunmasından sonra aparılan infrastruktur quruculuğu layihələrindən olan Füzuli və Zəngilan hava limanları nəinki iqtisadi, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu artırıb. Bu ilin sentyabr ayında istifadəyə verilən Zəngilan Beynəlxalq Hava Limanının uçuş-enmə zolaqları bütün növ sərnişin təyyarələrini qəbul etməyə imkan verir ki, bu da işğaldan azad edilmiş ərazilərimizə yüklərin operativ daşınmasına və gələcəkdə turizm sektorunun inkişafına böyük töhfə verəcəkdir. Bununla yanaşı, Laçında hava limanın inşası davam edir, Ağdam şəhəri isə baş plana uyğun olaraq yenidən qurulur. Prezident İlham Əliyev tərəfindən təməli qoyulan birinci "ağıllı kənd" layihəsi çərçivəsində isə artıq köç başlamışdır. Ən diqqətçəkən məqam isə Azərbaycan dövlətinin bütün bu layihələri həyata keçirməsinə çəkdiyi xərcləri daxili imkanlar hesabına etməsidir. Xarici şirkətlər bu yenidənqurma layihələrinə sadəcə podratçı kimi dəvət olunurlar.

Qarabağda inşa olunan yollar bölgənin yenidən qurulması istiqamətində atılan addımların tərkib hissəsi olmaqla yanaşı, həm də Zəngəzur dəhlizinin açılmasına xidmət edir. Region ölkələrini birləşdirəcək dəhlizin açılması və bu istiqamətdə inşa olunan yollar bölgənin inkişafını sürətləndirəcək və tranzit əhəmiyyətini artıracaq. Azərbaycan Prezidenti İlham Əliyev Türkmənbaşı şəhərində Türkiyə və Türkmənistan prezidentləri ilə geniş tərkibdə görüşündəki çıxışında bu barədə demişdir: "Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır və öz ərazisində dəmir yolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı olan bütün əsas layihələri icra etmişdir. Bunun nəticəsində Azərbaycan önəmli tranzit ölkəsinə çevrilmişdir".

Bu ilin 10 ayında Azərbaycan ərazisindən keçən ümumi tranzit daşımalarının həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artması bunu bir daha təsdiq edir. Bütün bunlarla Prezident İlham Əliyev regionda yaranmış yeni reallıqlara uyğun əməkdaşlıq təkliflərinə hər zaman açıq lider olduğunu bir daha təsdiqləyir.

İki il ərzində icra olunan layihələrə diqqət yetirdikdə əminliklə deyə bilərik ki, Qarabağ tezliklə Azərbaycanın deyil, dünyanın ən gözəl guşələrindən biri olacaq. Ona görə ki, burada bərpa-quruculuq işləri müasir dünya standartlarına uyğun icra edilir. Məsələn, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri insanların ətraf mühitə ziyan vurmadan yaşamasına hesablanıb. Azərbaycan sahibkarları da əmindirlər ki, birgə səylərimiz nəticəsində tez bir zamanda Qarabağ yenidən dirçələcək, insanların öz doğma yurdlarına dönmələrinə nail olunacaq. Bu sahədə dövlətlə özəl sektor arasında dialoqun, əməkdaşlığın olması da xüsusi əhəmiyyət kəsb edir.

Güclü iqtisadiyyatın formalaşmasından sonra qarşıya qoyulan ali məqsədlərə çatmaq üçün uğurlu xarici siyasət çox mühüm əhəmiyyət daşıyır. Biz Türkiyə ilə münasibətlərimizi strateji müttəfiqlik, qardaşlıq səviyyəsinə qaldırmışıq. Təsadüfi deyildir ki, "Can Azərbaycan" kəlməsi ilə Azərbaycan xalqına müraciət edən Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinə "Dostum, qardaşım, şəxsinə böyük hörmətim olan İlham Əliyev" deyə xitab edir. Bu, əlbəttə, Türkiyə-Azərbaycan münasibətlərində ən yüksək mərhələdir.

Bir il öncə İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 8-ci Zirvə Görüşündə Azərbaycan Prezidenti haqqında səslənən fikirlər, həmçinin İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi dövlətimizin başçısının dediyi kimi, bu, Azərbaycan xalqına verilmiş ən böyük dəyər idi.

Ordeni təqdim edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözlərinə diqqət edək: "Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa bir müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur. Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb". Bu, dostcasına səslənən səmimi fikirlər idi.

Cari il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Yola salmağa hazırlaşdığımız ilin son ayında Azərbaycan və Türkiyə silahlı qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə ölkəmizdə keçirilən "Qardaş yumruğu" birgə təlimi göstərdi ki, Şuşa Bəyannaməsi ilə hərbi müttəfiqliyini yeni mərhələyə yüksəldən iki qardaş dövlət hər zaman bir-birinin yanındadır. "Qardaş yumruğu" təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon zəngləri ilə iki qardaş ölkənin təlimdə iştirak edən şəxsi heyətlərini təbrik etdilər. İlham Əliyev "Qardaş yumruğu" təliminin Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürü olduğunu qeyd edərək birliyimizin sarsılmaz və əbədi olduğunu vurğuladı.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla sahibkarlığın inkişafına güclü təkan verir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuş, qəbul olunan dövlət proqramlarının icrası, həyata keçirilən kompleks islahatlar ölkəmizdə sabitliyi və davamlı inkişafı təmin etmişdir. Əhalinin həyat səviyyəsi yüksəlmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların tarazlı inkişafına nail olunmuş, sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açılmışdır.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir. Belə bir şəraitdə sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək, şərəflə və təmənnasız həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır. Heydər Əliyev irsinin uğurla davam etdirilməsində, qələbələr qazanılmasında Mehriban xanım Əliyevanın böyük fədakarlığı, layiqli xidmətləri vardır. Mehriban xanımın dahi şəxsiyyətin adını daşıyan fondun rəhbəri kimi ölkə və dünya miqyasında həyata keçirdiyi mərhəmət aksiyaları, sosial layihələr Heydər Əliyevin əbədiyaşar ruhuna ən böyük ehtiram nümunələridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu qısa müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış Mehriban xanım Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir.

Azərbaycanda gedən sürətli iqtisadi inkişaf dünya reytinq təşkilatları tərəfindən yüksək qiymətləndirilir. Belə ki, ötən il dünyanın ən böyük beyin mərkəzlərindən olan İrs Fondu tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında Azərbaycan 172 ölkə arasında 38-ci yerdə qərarlaşmış, dünya üzrə orta göstəricidən yuxarı və Avropa ölkələri səviyyəsində nəticə göstərmişdir. Cari ilin oktyabr ayında "Fitch Ratings" beynəlxalq kredit reytinq agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini müsbət səviyyədə bir daha təsdiq edərək proqnozu "sabit"dən "pozitiv"ə yüksəltmişdir ki, bu da qlobal iqtisadi mühitdə cərəyan edən qeyri-sabitlik və yüksək inflyasiya şəraitində ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirir. Ümumiyyətlə, aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində ölkəmizdə iqtisadi aktivliyin bərpası sahibkarlıq subyektlərinin artımı ilə müşayiət olunur. Belə ki, 2022-ci ilin yanvar-iyun aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə ötən ilin müvafiq dövrü ilə müqayisədə 49,3 faiz çox, yəni 6,5 milyard vergi daxil olmuş, bununla da proqnoza 147 faiz əməl edilmişdir ki, bu da sahibkarlıq subyektlərinin geniş fəaliyyətinin real göstəricisidir.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Regionların yeni siyasi-iqtisadi reallığından söz açarkən ilk növbədə 2004-cü ildən bu günədək ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası yada düşür. Ötən illər ərzində şəhər və rayonlarda, kəndlərdə, qəsəbələrdə infrastruktur layihələri uğurla gerçəkləşmiş, ölkə vətəndaşlarının həyat tərzinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

2022-ci ilin 11 ayı ərzində ölkədə 121,4 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz çox ümumi daxili məhsul istehsal olunması, iqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyərin 9,2 faiz artması qeyri-neft sektorunda sahibkarlığın inkişafının real göstəricisidir.

Sahibkarlığın inkişafına dövlət dəstəyi sayəsində Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlərin verilməsi davam edir. Dövlət büdcəsinə əlavə yük yaratmadan güzəştli kreditlərin verilməsi kreditləşmədən geri qaytarılan vəsaitlər hesabına təmin edilir. İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadiyyata güzəştli kredit dəstəyi çərçivəsində 2022-ci ilin yanvar-oktyabr aylarında 2200 investisiya layihəsinin maliyyələşdirilməsinə 105 milyon manatdan çox güzəştli kredit verilmişdir ki, bu da 2300-dən çox yeni iş yerlərinin açılmasına şərait yaratmışdır.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və digər xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir. Bununla bağlı Azərbaycan Sahibkarlar Konfederasiyası İqtisadiyyat Nazirliyinin tabeliyində olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə əməkdaşlıq edir. Əməkdaşlığın əsas məqsədi kiçik və orta sahibkarların fəaliyyətlərinin tənzimlənməsində iştirak etmək, bu sahədə beynəlxalq təcrübədə geniş tətbiq olunan və müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin və səmərəli əlaqələndirmə mexanizminin tətbiqi yolu ilə bu subyektlərin ölkə iqtisadiyyatında rolunu möhkəmləndirmək, maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək, dövlət və özəl qurumların bu sahədə fəaliyyətini əlaqələndirmək, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaratmaq, bu sahəyə yerli və xarici investisiyaları cəlb etməkdir.

Ümumiyyətlə, Azərbaycan Sahibkarlar Konfederasiyası İqtisadiyyat Nazirliyi və onun tabeliyində olan qurumlarla sıx əməkdaşlıq çərçivəsində son illər bir sıra yerli və beynəlxalq tədbirlərin təşkilində yaxından iştirak etmişdir. Həmin tədbirlərdə yerli və xarici şirkətlərin nümayəndələri iştirak etmişlər ki, bu da özəl sektorda sağlam qüvvələrin birləşməsinə əsaslı zəmin yaratmışdır. Sahibkarlar Konfederasiyası İqtisadiyyat Nazirliyi ilə birlikdə sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirməklə həmçinin günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquqlarının qorunması istiqamətində mütəmadi olaraq iş aparır.

Sahibkarlarımız öz işlərini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq üçün peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

Sahibkarlar Konfederasiyası, Azərbaycan Hökuməti və Həmkarlar Konfederasiyası ilə birlikdə sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır. Bu üç qurum arasında 2020-2022-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqeləri və birgə fəaliyyətləri müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır. Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir. Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkənin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları, eləcə də digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Konfederasiya tərəfindən cari il beynəlxalq və regional təşkilatlarla birgə keçirilən tədbirlərdə xarici ölkələrin diplomatik nümayəndəlikləri və donor təşkilatlarla görüşlərin əsas mövzularından biri də Qarabağın iqtisadi imkanları və inkişafı potensialı olmuşdur.

Bütün bunlarla yanaşı, ölkəmizdə sahibkarlığın inkişafının dəstəklənməsi məqsədilə konfederasiyaya üzv sahibkarların iştirakı ilə xarici ölkələrdə və ölkəmizdə olan rayon nümayəndələri ilə keçirilmiş görüşlərdə, habelə konfederasiyanın tabeliyində olan komissiyaların iclaslarında iqtisadiyyatın müxtəlif sahələri ilə bağlı məsələlər təhlil edilmişdir. Sahibkarlardan daxil olan müraciətlərə baxılaraq, onların qaldırdığı məsələlərlə bağlı müvafiq dövlət orqanları ilə birgə araşdırmalar aparılmışdır. Eləcə də konfederasiya "Vergi Məcəlləsi"ndə dəyişikliklər, tikintidə qeyri-rəsmi məşğulluğun qarşısının alınması və digər məsələlərlə əlaqədar hazırlanmış qanunvericilik layihələri ilə bağlı bir sıra təkliflərlə çıxış etmişdir.

Sahibkarların maarifləndirilməsi və məlumatlandırılması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində iş adamlarına həftəlik məlumat bülletenləri, hüquqi qanunvericiliklə bağlı yeniliklərin izahını əhatə edən bir neçə hüquqi icmal sənədi təqdim edilmişdir. Bundan əlavə, cari ildə sahibkarların dövlət dəstək tədbirləri haqqında məlumatlılığını yüksəltmək, eləcə də Qarabağda yaradılan yeni iqtisadi zonalar, sənaye parkları və digər mövzuların daha geniş və analitik səpkidə təqdim edilməsi üçün "Biznes həyatı" jurnalının 29-31-ci sayları dərc olunmuşdur.

Qeyd etmək iştərdik ki, üzümüzə gələn 2023-cü ildə də konfederasiya tərəfindən bir sıra vacib tədbirlərin keçirilməsi nəzərdə tutulur. Belə ki, 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Sahibkarlar Konfederasiyası tərəfindən 2023-cü ildə görüləcək işlər barədə tədbirlər planı hazırlanmış və müvafiq qaydada təsdiqlənmiş, icrası ilə bağlı hazırlıq işlərinə başlanılmışdır. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə uyğun olaraq Azərbaycan Sahibkarlar Konfederasiyasının "2021-2023-cü illər üzrə Kommunikasiya Strategiyası" hazırlanmışdır.

Bütün dünyada iqtisadi inkişafın zəifləməsinə baxmayaraq, Azərbaycan Prezidenti 2023-cü il üçün iqtisadi inkişaf hədəflərini açıqlamış və gələcəkdə ölkə iqtisadiyyatını inkişaf etdirməklə, 30 il ərzində məhv edilmiş Qarabağ torpaqlarını yenidən dirçəltmək kimi məqsədlərin dayandığını bildirmişdir. Bütün müharibə dövründə dövlət başçısının ətrafında sıx birləşərək "dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları işğaldan azad olunmuş ərazilərin dirçəlməsi naminə səylərini daha da gücləndirəcək. Bu məqsədlə Sahibkarlar Konfederasiyası da öz növbəsində üzv olduğu beynəlxalq təşkilatlar, xaricdə yaşayan azərbaycanlı iş adamları, eləcə də milli sahibkarlarımızın potensial imkanlarından istifadə etmək üçün indidən geniş tədbirlər həyata keçirir.

Bu gün Azərbaycan sahibkarları ürəkdən inanır ki, tarixi qələbədən sonra respublikamız daha sürətlə inkişaf edəcək və qısa zamanda cənab İlham Əliyevin rəhbərliyi ilə dünyanın inkişaf etmiş ölkələri sırasına qoşulacaqdır. Son illərin reallıqları təsdiqləyir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün gücünü bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi Liderdir.

Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın sevimlisi olmaq, onun hörmət və ehtiramını qazanmaq daha böyük bəxtəvərlikdir. İlham Əliyevin dediyi kimi, xoşbəxt insandır ki, Azərbaycanın yeni, şanlı tarixinin müəllifi, xalqımızın bitib tükənmək bilməyən qürur və iftixarının ilham mənbəyi oldu.

Öz ölkəsinə şanlı Zəfər bayramını və xoşbəxtliyi bəxş edən Prezident İlham Əliyevə xalqımızın sevgisinin, vurğunluğunun, hörmət və ehtiramının miqyasını təsəvvür etmək çətindir.

*Dövlət başçısı hər kəsə örnək ola biləcək zəngin, mənalı və qalib bir həyat yaşayır. Fürsətdən istifadə edərək çoxminlik Azərbaycan sahibkarları adından Prezidenti ad günü münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı, ölkəmizin inkişafı, xalqımızın rifahı, Qarabağın və Şərqi Zəngəzurun çiçəklənməsi naminə fədakar fəaliyyətində uğurlar arzulayırıq!*

*Sizinlə fəxr edirik, cənab Prezident!*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***